**Azərbaycan Respublikası nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2006-cı ilin yekunları haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan yüksəliş 2006-cı ildə özünün növbəti yüksək səviyyəsinə çataraq iqtisadi və sosial sahələrdə qazanılmış yeni nailiyyətlərlə əlamətdar olmuş, bu uğurları nümayiş etdirən makroiqtisadi göstəricilər isə əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Ümumi Daxili Məhsul istehsalı **34,5** faiz və ya müqayisəli qiymətlərlə 4,3 milyard manat artaraq 17,7 milyard manata çatmışdır. Ümumi Daxili Məhsulun əhalinin hər nəfərinə düşən həcmi 33,0 faiz artaraq 2120,3 manat və ya 2373,3 ABŞ dolları təşkil etmişdir.

2006-cı ildə istehsal olunmuş ümumi daxili məhsulun 72,9 faizi iqtisadiyyatın istehsal, 20,6 faizi isə xidmət sahələrində istehsal olunmuşdur. .

Ü**mumi daxili məhsulun** 58,3 faizi sənaye sahələrində, 7,5 faizi tikinti kompleksində, **5,3 faizi nəqliyyatda**, 7,1 faizi kənd təsərrüfatı, ovçuluq və meşəçilikdə, 5,6 faizi topdan və pərakəndə satış, avtomobillərin, motosikletlərin, məişət malları və şəxsi əşyaların təmiri üzrə xidmətlər sahəsində, 1,8 faizi rabitədə, 7,9 faizi digər xidmətlər və sosial sahələrdə yaradılmış, 6,5 faiz isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

Əlavə dəyərin 81,0 faizi qeyri-dövlət bölməsində yaradılmış, qeyri-neft sektorunda ÜDM istehsalı ötən illə müqayisədə 12,1 faiz artmışdır. **ÜDM-ün strukturunda nəqliyyat xidmətlərinin həcmi 2005-ci ilə nisbətən 48,3 faiz artmışdır.**

**2006-cı ildə ümumi daxili məhsulun strukturu**




2006-cı ildə müəssisə və təşkilatların öz vəsaitləri hesabına əsas kapitala yönəltdikləri sərmayənin həcmi 4139,4 milyon manat (ümumi investisiyanın 69,4 faizini), bank kreditləri 383,8 milyon manat (6,4 faizini), büdcə vəsaitləri 847,5 milyon manat (14,2 faizini), büdcədənkənar fondların vəsaitləri 253,7 milyon manat (4,3 faizini), əhalinin şəxsi vəsaitləri

320,4 milyon manat (5,4 faizini), digər vəsaitlər isə 18,8 milyon manat (0,3 faizini) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




Bütün maliyyə mənbələri hesabına istifadə edilmiş **investisiyanın** 69,3 faizi sənaye sahələrinin inkişafına, 1,0 faizi kənd təsərrüfatına, 0,1 faizi tikintiyə, 1,9 faizi ticarət və xidmətə, **9,1 faizi nəqliyyata,** 3,5 faizi rabitəyə, 8,2 faizi mənzil tikintisinə 6,9 faizi digər sahələrə yönəldilmişdir.

**İqtisadiyyatın müxtəlif sahələrinə yönəldilmiş investisiyanın xüsusi çəkisi**

(yekuna görə faizlə)



İqtisadiyyatın müxtəlif sahələrinin dinamik inkişafı ilə yanaşı nəqliyyat sektorunda ilbəil davamlı inkişaf, 2006-cı ildə də müşahidə olunmuşdur.

Hesabat ilində nəqliyyat sektorunda bütün növ nəqliyyat vasitələri ilə yük daşınması 13,0 faiz, sərnişin daşınması isə 6,3 faiz artaraq müvafiq olaraq 145,1 milyon ton və 1,06 milyard sərnişin təşkil etmişdir.

**Dəmir yolu nəqliyyatı** vasitəsilə daşınmış yüklərin həcmi ötən ilə nisbətən 11,9 faiz artmış və 29,7 milyon ton təşkil etmişdir. Yük dövriyyəsi üzrə artım 13,3 faiz olmuşdur. Sərnişin daşınması 5,9 faiz artaraq 5,8 milyon nəfər təşkil etmişdir. Sərnişin dövriyyəsi 9,3 faiz artmışdır.

Layihə dəyəri 7,2 milyon manat olan Biləcəri çən vaqonlarının yuyulması stansiyasında yenidənqurma işləri başa çatdırılaraq istismara verilmişdir.

Dövlət büdcəsinin vəsaiti hesabına 5 ədəd, Dəmir Yolunun vəsaiti hesabına isə 4 ədəd elektrovoz alınaraq istismara verilmişdir.

Hesabat ilində Saatlı rayonunda layihə dəyəri 2,2 milyon manat olan Araz çayı üzərindəki dəmir yolu körpüsündə yenidən qurma işləri davam etdirilmiş, Zirə-Pirallahı dəmir yolu sahəsinin 23-24 km-də sahilbərkitmə işləri yerinə yetirilmiş və 160 metr sahədə xüsusi qurğu tikilmişdir.

Dəmir yolunda 2006-cı il ərzində 8,5 km yolun əsaslı təmiri, 42 km yolun orta təmiri aparılmış, 45 dəst yoldəyişən qurğular və 39,5 min ədəd şpal dəyişdirilmiş, 11 ədəd elektrovoz, 10 ədəd teplovoz, 3 elektrik qatarı əsaslı təmirdən keçirilərək istismara verilmiş və bir elektrik qatarı modernləşdirilmiş, yük vaqonlarından 4698 ədədi depo təmirindən, 962 ədədi isə əsaslı təmirdən keçirilmiş, 135 yarımvaqon bərpa edilərək istismara qaytarılmışdır.

Hesabat dövründə 58 ədəd sərnişin vaqonu əsaslı, 371 ədədi isə depo təmirindən keçirilmişdir. Sərnişin daşımalarına olan tələbatın ödənilməsi məqsədi ilə Bakı - Sankt-Peterburq və Bakı - Rostov marşrutu üzrə hərəkət edən qatarların sayı artırılmış, Voronej, Novosibirsk və Saratov şəhərləri istiqamətində hərəkət edən beynəlxalq qatarların tərkibinə əlavə vaqonlar qoşulmuşdur.

2006-cı il ərzində Dəmir Yolunun daxili imkanları hesabına 30 dəmir yolu stansiyasında və 26 istehsalat müəssisəsində əsaslı təmir işləri aparılmışdır.

Dəmir yolunun Bakı - Böyük-Kəsik sahəsində qatarların hərəkət sürətinin artırılması və gələcəkdə bu istiqamətdə sürət qatarının istismara buraxılması məqsədilə Koreya mütəxəssisləri ilə birgə tədqiqat və Texniki İqtisadi Əsaslandırma işlərinə başlanılmışdır.

İlkin hesablamalara görə hesabat ilində **Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 43,5 milyon ton və ya ölkənin nəqliyyat sektorunda həyata keçirilən bütün daşımaların 37,6 faizi qədər yük daşınması həyata keçirilmiş və onların 30,6 faizi dəmir yolu, 29,0 faizi avtomobil, 18,0 faizi isə su nəqliyyatı vasitəsilə daşınmışdır. Su nəqliyyatı istisna olmaqla digər nəqliyyat növləri ilə dəhliz vasitəsilə yük daşımasında artım olmuşdur. Dəhlizdə yük və sərnişin daşınmasından 219,6 milyon manat gəlir əldə edilmiş və bu gəlirin 62,7 faizi dəmir yolu ilə, 19,0 faizi su, 18,3 faizi isə avtomobil nəqliyyatı ilə daşımalar hesabına yaradılmışdır.

**Hava nəqliyyatı** vasitəsilə hesabat ilində 73,2 min ton və ya əvvəlki ilə nisbətən 1,3 faiz az yük, 1,3 milyon və ya əvvəlki ilə nisbətən 10,3 faiz çox sərnişin daşınmışdır. Bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin 84,2 faizi dövlət bölməsinə, 5,8 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir.

Hesabat ilində "Azərbaycan Hava Yolları" Dövlət Konserni tərəfindən 2 ədəd A-319 tipli Aerobus alınmışdır. Gəncə hava limanında yenidənqurma işləri başa çatdırılmış və istismara verilmişdir.

Lənkəran və Zaqatala şəhərlərində hava limanlarının yenidən qurulması işlərinə başlanılmışdır.

**Su nəqliyyatı** vasitəsilə daşınmış yüklərin həcmi hesabat dövründə 1,3 faiz azalmış və 13,5 milyon ton təşkil etmişdir. Daşınmış yüklərin 70,2 faizini neft məhsulları, 29,8 faizini isə quru yüklər təşkil etmişdir. Daşımaların 99,8 faizi xarici əlaqə üzrə həyata keçirilmişdir. Bu

nəqliyyatda yük dövriyyəsi 6.9 faiz artmış və 8,04 milyard ton. km təşkil etmişdir. Sərnişin daşınması isə 10,3 faiz artmışdır. Hesabat ilində Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi tərəfindən yük tutumu 13,0 min ton olan yeni iki tanker alınmışdır. **Bakı Beynəlxalq Dəniz Ticarət Limanında** 6,04 milyon ton və yaxud 5,6 faiz çox yükləmə boşaltma əməliyyatları yerinə yetirilmişdir. Hesabat ilində limandan keçən işlənmiş yüklərin 83,3 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 4,7 faiz, ixrac yüklərin həcmi 18,4 faiz artmış, idxal yüklərinin həcmi isə 3,2 faiz azalmışdır. Bakı dəniz vağzalında və bərə keçid körpüsündə 1,34 milyon manat dəyərində əsaslı təmir işləri başa çatdırılmışdır.

**Avtomobil nəqliyyatı** vasitəsilə hesabat ilində 74,4 milyon ton yük, 895,0 milyon sərnişin daşınmış və ötən il ilə müqayisədə daşımaların həcmi müvafiq olaraq 7,0 faiz və 5,8 faiz artmışdır. Artım sürəti yük dövriyyəsində 109,1 faiz sərnişin dövriyyəsində isə 108,2 faiz olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 01 fevral 2006-cı il tarixli 1255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006 - 2007-ci illər üçün Tədbirlər Planı"nına uyğun olaraq, Bakı şəhərində sərnişin daşımalarının təşkili, idarə olunması və tənzimlənməsi ilə əlaqədar mərhələli işlərin görülməsinə başlanılmışdır.

İlk növbədə, sərnişin nəqliyyatı vasitələrinin təhlükəsiz, texniki və ekoloji normalara uyğun istismarının təmin olunması məqsədilə texniki müayinə məntəqələrinin təşkili, sürücülərin reysqabağı və reysdən sonra tibbi müayinədən keçirilməsi, səmərəsiz marşrutlar ixtisar edilməklə şəhərin marşrut sxeminin optimallaşdırılması və avtobusların hərəkət cədvəllərinin təkmilləşdirilməsi, texniki tələblərə cavab verən avtobus və taksi dayanacaq yerlərinin müəyyənləşdirilməsi, yeni nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması tədbirləri həyata keçirilir.

İctimai nəqliyyatın yeni dayanacaq yerlərinin təşkili məqsədilə dayanacaqlar inventarlaşdırılmış və ilk mərhələdə 400-dən artıq avtobus və 126 taksi dayanacağı məntəqəsi müəyyənləşdirilmiş, şəhərətrafı qəsəbələrdən hərəkət edən avtobusların son dayanacaqlarının yaxın metro stansiyaları ərazilərinə keçirilməsi işlərinə başlanılmışdır. Nəqliyyat vasitələri üçün 50 texniki-müayinə məntəqəsi və genişləndirilməsi nəzərdə tutulan 47 avtobus dayanacaq məntəqəsi müəyyən edilmişdir.

Şəhər sərnişin nəqliyyatı parkının iri tutumlu avtobuslar hesabına yeniləşdirilməsi məqsədlə Türkiyə, Belarus, Ukrayna, Almaniya, İran, Çin və Cənubi Koreyada istehsal edilən şəhər avtobuslarının texniki xüsusiyyətləri və qiymətləri barədə məlumat toplusu hazırlanmış və onların alınması üçün müxtəlif səviyyələrdə danışıqlar aparılmışdır.

Bakı şəhərində sərnişin nəqliyyatının hərəkətinin tənzimlənməsi və idarə olunması məqsədilə Koreya mütəxəssisləri ilə birlikdə "İntellektual Nəqliyyat Sistemi"nin yaradılması üçün tədqiqat-layihələndirmə işlərinə başlanılmışdır.

Avtomobil nəqliyyatı sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanunun, avtomobil nəqliyyatı ilə sərnişin, baqaj və yüklərin daşınması haqqında qaydaların, avtovağzal (avtostansiya) və avtokassa haqqında və müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlarda sərnişindaşıma xidmətlərinin göstərilməsi üzrə müsabiqələrin keçirilməsi qaydaları haqqında Əsasnamələrin layihələri, yol hərəkəti qaydalarının tələblərinin pozulmasına görə inzibati cəza tədbirlərinin gücləndirilməsi məqsədilə İnzibati Xətalar Məcəlləsinə yeni maddələrin daxil edilməsi təklifləri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004 - 2008-ci illər) icrası ilə əlaqədar olaraq avtomobil nəqliyyatının işinin tənzimlənməsi məqsədilə Bakı şəhəri və respublikanın 15 inzibati rayonunda "Regional Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyətləri təşkil edilmişdir.

Hesabat ilində avtomobil nəqliyyatı ilə beynəlxalq, şəhərlərarası, şəhərdaxili sərnişin və yük daşımaları fəaliyyətinə 624 lisenziya verilmişdir ki, bu da 4080 ədəd avtonəqliyyat vasitəsini əhatə etmiş, dövlət büdcəsinə 68,4 min manat vəsait ödənilmişdir.

Yük və sərnişin daşıyıcılarının vergiyə cəlb edilməsi məqsədilə ötən ilin mart ayından etibarən avtonəqliyyat vasitələrinə "Fərqlənmə nişanı"nın verilməsinə başlanılmış və dövlət büdcəsinə 4,5 milyon manat vəsait ödənilmişdir.

2006-cı il ərzində Bakı Beynəlxalq Avtovağzal kompleksində tikinti işləri davam etdirilmiş və tikintinin bu ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulur.

Hesabat dövründə avtomobil nəqliyyatı sahəsi üzrə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixində Milli Məclisdə 2005-ci ilin yekunları ilə bağlı hesabatın müzakirəsi zamanı millət vəkilləri tərəfindən nəqliyyatla bağlı səslənən iradların da aradan qaldırılması təmin edilmişdir.

Nəqliyyat vasitələrinin sayı hər il olduğu kimi son ildə də kəskin şəkildə artmışdır. 2003-cü ildə 40,9 min, 2004-cü ildə 43,0 min, 2005-ci ildə 58,3 min ədəd çoxalmış avtomobil nəqliyyatı vasitələrinin artımı 2006-cı ildə 77,9 min ədədə çatmışdır. Nəticədə, əhalinin hər min nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1,5 dəfə artaraq 81 ədəd olmuşdur. Avtomobillərin 80 faizini minik avtomobilləri, 14,1 faizini yük avtomobilləri, 4,0 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı avtomobillər təşkil etmişdir.

Hesabat ilində ümumi istifadədə olan **avtomobil yollarının** təmiri və saxlanmasına 71,0 milyon manat və daxili investisiyalar hesabına həyata keçirilən obyektlərin tikintisinə 152,5 milyon manat vəsait istifadə edilmişdir.

2006-cı il ərzində Yol İstismar İdarələrinin gücü ilə 71,0 milyon manat vəsait hesabına 1364 km avtomobil yolları təmir olunmuşdur.

Uzunluğu 73 km olan Gəncə – Qazax avtomobil yolunda tikinti işləri başa çatdırılaraq istismara verilmişdir.

Uzunluğu 85,6 km olan Hacıqabul – Kürdəmir hissəsində İtaliyanın "Todini" şirkəti tərəfindən tikinti işləri davam etdirilmişdir.

Bakı-Gürcüstan sərhədi avtomobil yolunun Kürdəmir – Ucar (46,2 km), Ucar – Yevlax (53 km), Yevlax – Gəncə (88,8 km) və Qazax – Gürcüstan Dövlət sərhədi (38 km) hissələrinin yenidən qurulması ilə bağlı məsləhətçi və podratçı firmaların seçilməsi məqsədilə açıq beynəlxalq tenderlər keçirilmiş, qalib şirkətlər müəyyənləşdirilmişdir.

Bu yolun Yevlax – Gəncə və Qazax – Gürcüstan Dövlət sərhədi hissələrinin tikintisinə 2007-ci ilin II rübündən başlanacaqdır.

Bakı – Quba – Rusiya Dövlət sərhədi avtomobil yolunun Texniki İqtisadi Əsaslandırması və dizayn işləri hazırlanmış, yolun111-ci km-dən dövlət sərhədinədək hissəsinin tikintisinə 2006-cı ilin mart ayında başlanmışdır.

Ələt – Astara – İran İslam Respublikası Dövlət sərhədi avtomobil yolunun Texniki İqtisadi Əsaslandırması və dizayn işləri başa çatdırılmışdır.

Uzunluğu 19 km olan Biləsuvar – İran sərhədi avtomobil yolu hesabat ilinin may ayında istismara verilmiş, Bakı – Ələt avtomobil yolunda 3,2 milyon manat dəyərində iş həcmi yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən Masallı – Yardımlı (55,7 km), Quba – İspik – Xınalıq (57 km), Gəncə – Daşkəsən – Xoşbulaq (47 km), Giləzi – Xızı (31 km) avtomobil yollarının yenidənqurulması başa çatdırılmışdır. Quba – İspik – Xınalıq, Masallı – Yardımlı, Gəncə – Daşkəsən – Xoşbulaq, Giləzi – Xızı avtomobil yolları istismara verilmişdir.

Muğanlı-İsmayıllı (40 km) avtomobil yolunun əsaslı təmirində 2,0 milyon manatlıq iş həcmi yerinə yetirilmiş və tikinti işləri 2008-ci ilin I yarısında başa çatdırılacaqdır.

Uzunluğu 124 km olan Bakı – Şamaxı – Muğanlı avtomobil yolunun yenidənqurulmasının layihə işləri yekunlaşdırılmış, tikinti işlərinə 2007-ci ilin I rübündən başlanılacaqdır.

Şamaxı rayonunda Pirsaat çayı üzərində uzunluğu 150 paqon metr olan Qızmeydan, Ağdaş-Zarağan avtomobil yolunda Sağ Birlik kanalı üzərində 22 paqon metr və Quru dərə üzərinə 22 paqon metr və Qax – Zaqatala yolunda Muxax çayı üzərində uzunluğu 42 paqon metr olan körpülərinin tikintisi başa çatdırılmışdır.

Qazax rayonu ərazisində Xram çayı üzərində körpünün tikintisində 1,6 milyon manatlıq, Oğuz rayonu ərazisində Qala çayı (Filfili) üzərində körpünün tikintisində 923 min manatlıq, Xaçmaz rayonu ərazisində Qudyalçay üzərində körpünün tikintisində 214 min manatlıq, İsmayıllı rayonu ərazisində Lahıc kəndinin seldən mühafizə qurğularının tikintisinə və Girdman çayı üzərində körpünün tikintisində 137 min manatlıq iş həcmi yerinə yetirilmiş və bu işlər davam etdirilərək 2007-ci ildə istismara veriləcəkdir.

Dövlət büdcəsindən ayrılmış 15 milyon manat məqsədli vəsait hesabına 317 ədəd maşın və mexanizm alınaraq respublikaya gətirilmiş və Yol İstismar İdarələrinə verilmişdir. Bu maşın və mexanizmlərdən 14 ədədi, o cümlədən 6 ədəd avtomobil və 8 ədəd yol mexanizmi Naxçıvan Muxtar Respublikasına verilmişdir.

Bu dövrdə ümumi illik istehsal gücü 2,1 milyon ton olan 7 ədəd asfalt beton zavodu alınmışdır.

Bakı şəhərində 9 ədəd yol qovşağının və 5 ədəd piyada keçidinin tikintisinə başlanılmış, 112,4 milyon manatlıq iş həcmi yerinə yetirilmişdir.

2006-cı ildə 2 ədəd yol ötürücüsünün və 2 ədəd piyada keçidinin tikintisi başa çatdırılaraq istismara verilmişdir.

Hesabat dövründə Əzizbəyov dairəsindən Heydər Əliyev Hava Limanına qədər (12,6 km) və Bakı Dairəvi 1 (21,5 km) avtomobil yolunun tikintisinə başlanılmışdır. Bakı dairəvi-2 (55 km) avtomobil yolunun layihəsinin hazırlanması işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 159 nömrəli Fərmanının 14.1-ci bəndinin icrası olaraq, Nəqliyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasında 2006 - 2015-ci illər üzrə avtomobil yolları şəbəkəsinin yenidən qurulması və nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramlarının layihələri hazırlanıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Bundan əlavə 2006-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasının nəqliyyat sisteminin inkişafı strategiyası"nın layihəsi işlənib hazırlanaraq dövlət daxili proseduraların keçirilməsi üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur. Hazırda respublikanın aidiyyatı dövlət qurumları tərəfindən təqdim olunan rəy və təkliflərin ümumiləşdirilməsi işləri aparılır.

2003-cü il oktyabr ayının 1-dən 2007-ci ilin yanvarın 1-dək nəqliyyat sektoruna daxil olan dövlət qurumları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 8960, o cümlədən 2672 müvəqqəti iş yerləri açılmış, o cümlədən 4106 iş yeri 2006-cı il ərzində açılmışdır.

Hesabat ilində ölkəmizin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası məqsədilə beynəlxalq əməkdaşlıq məsələləri daim diqqət mərkəzində saxlanılmışdır.

Beynəlxalq təşkilatların, xüsusən, nəqliyyat məsələlərinin daha geniş müzakirə olunduğu BMT-nin Avropa və Asiya üzrə İqtisadi Komissiyalarının, Avropa İttifaqının, Avropa Nəqliyyat Nazirləri Konfransının, QDİƏT, İƏT, GUAM və MDB-nin Nəqliyyat təşkilatlarının, TRASEKA və SPEKA Proqramlarının işində nümayəndələrimizin aidiyyəti üzrə iştirakı və qərarlar qəbul edilərkən ölkəmizin maraqlarının qorunması təmin olunmuşdur.

Böyük əhəmiyyət kəsb edən "Bakı - Tbilisi - Qars yeni dəmir yolu bağlantısı" layihəsi üzrə işlər davam etdirilmişdir.

Layihənin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə sərhədi hissəsinin maliyyələşdirilmə, layihələndirilmə, tikinti, reabilitasiya-rekonstruksiya və istismar şərtləri və prinsipləri haqqında" Hökumətlərarası Saziş layihələri müzakirə edilərək razılaşdırılmışdır.